# Səməd Vurğun - milli dəyərlərin “müsəlləh əsgər”i

**Vaqif Osmanov**



(əvvəli ötən sayımızda)

***Milli dəyərlər hər bir milləti tanımaq və tanıtmaq üçün yetərli mənəvi xəzinədir. Dil, Vətən, dövlətçilik, adət-ənənələr, ədəbiyyat, xalq yaradıcılığı, din, əxlaq meyarları ümdə milli-mənəvi dəyərlər sistemidir. Milli dəyərlərə sahib olmaq məsələnin birinci şərtidirsə, onu qorumaq, gələcək nəsillərə çatdırmaq ondan da önəmli məsələdir. Axı milli dəyərlər milli kimliyimizdir. Səməd Vurğun adlı Böyük Türkün milli-mənəvi dəyərlər xəzinəsindən hələ çox incilər tapacaq, intellekt işığımızı daha gur yandıracağıq.***

***Milli dəyərlərin təməlində müqəddəs dil və Vətən anlayışları dayanır. Millət Vətənsiz, dövlətsiz yaşaya bilər, ancaq dilsiz mövcud ola bilməz.Dil millətin dayaq sütunudur, xalqın yaddaşı, mənliyidir. Dil ana laylası, ata öyüdüdür.***

Milli şüurumuzu cilalayıcısı, milli mənliyimizi özümüzə tanıdan Türk dünyasının ünlü şairi Bəxtiyar Vahabzadə “Ana dilim” şeirində milli dəyərlərə, xüsusilə ana dilimizə biganələrə, kosmopolit qavrayışlılara dərs verirdi:

**Siz ey doğma dilində danışmağı ar bilən,**
**Bunu iftixar bilən,**
**Fasonlu ədəbazlar,**
**Ruhunuzu oxşamır qoşmalar, telli sazlar.**
**Bunlar qoy mənim olsun,**
**Ancaq Vətən çörəyi qoy sizə qənim olsun...**




Böyük Türk mütəfəkkiri Cəmil Məric çox sərrast deyirdi: “Dilə uzanan əl namusa uzanmış kimidir”. Namusumuzu qoruyaq!

Ali bəy Kafkasyalı monoqrafiyasında Vurğunun şəxsiyyətini, ali insanlıq meyarlarını, ana dilimizin formalaşmasında, zənginləşməsində xidmətlərini, azərbaycançılıq məfkurəsini birləşdirərək bütöv Səməd Vurğun obrazı yaratmışdır. Şairin XX əsrin əvvəllərində dilimizi yabançı ərəb, fars, rus sözlərindən təmizlənməsində əməyi danılmazdır. Vurğunun şeirləri xalqın yaddaşında əbədi yaşayır. Çünki dilimizin orfoqrafik və orfoepik qaydalarına uyğundur, oxunaqlıdır, büllur bulaq suyu kimi safdır. Ali bəy yazır:

“Yazdıqlarının və söylədiklərinin dəyərindən əvvəl onu söyləyə bilmişolmasının, yol göstərməsinə əlavə olaraq, yola bələdçilik etməsinin və beləliklə millətin səsi, milli şair ola bilməsinin dəyəri həm bilinməli, həm bildirilməlidir. Onun yalnız sözlərinin gözəlliyi deyil, söyləyişinin gözəlliyi də olduqca mühümdür. Gözəl söz çox söylənməkdədir, lakin iltifat üçün sözlərin süsləndiyi, riyakarlıq üçün bəzədildiyi zamanlarda millətin eşitmə orqanı – qulaq sözləri zərgər kimi işləyərək söyləyə bilmənin də, sözün də, zərgərliyin də fövqündədir. Səməd Vurğunun fövqəladəliyi, sözlərin özündən əvvəl onun, nəyəsə istinad etmədən ayaqda qala bilmək üçün lazım olanın söylənməsindədir ki, onun millətə və millət üçün deyilişi, burada artıq lazım olanın söylənməsinin əmsalıdır”.

Bu cümlələr Səməd Vurğun yaradıcılığına, sözünün önəminə bilim adamının mükəmməl elmi-analitik və akademik yanaşmasıdır.

Vətən Vurğun poeziyasının əbədi mövzusudur. Şairin vətəndaşlıq mövqeyi, Vətən sevgisi, həsrəti hər misrasında öndə dayanır. “Azərbaycanın səsi, sözü, sözçüsü, güzgüsü Səməd Vurğun” (A. Kafkasyalı) Molla Pənah Vaqifin dili ilə “Əyilməz vicdanın böyük heykəli” misrasını ona görə ürəklə və qürurla deyir ki, vicdanı qarşısında üzüağdır, ancaq vicdanının səsini ağ vərəqlərə düzür. Vətən Vurğunun müqəddəs yeri, qibləsidir.

**Bizə meydan oxuyan bilməlidir birdəfəlik,**
**Nə satılmaz, nə verilməz binədən yada Vətən.**

Ali Kafkasyalı Səməd Vurğunu “Azərbaycanın cismən və ruhən molekuluna, başqa bir sözlə, Azərbaycan torpağının özünə” bənzətməsi milli şairə ən möhtəşəm və layiqli dəyərdir. Səməd Vurğunun “Vətəni Ana qucağıdır, Ana nəfəsidir”. Ali bəyə görə:

“Vurğun insani duyğular içərisində ən önəmlisinin vətənsevərlik olduğuna inanır. Xalqına eşqi, ülfəti, Vətən sevgisi insanın həyat nəfəsidir. Havasız, nəfəssiz yaşamaq mümkün olmadığı kimi insanın vətənsiz yaşamasının mümkün olmadığını düşünür”.

***Səməd Vurğun milli şair olmaqla yanaşı, həm də bəşəridir. Onun ‘dünyanın əşrəfi” insana, insanlığa dəyəri bir coğrafi əraziyə sığmır. Nazim Hikmət Vurğunu ‘dünyanın hər yerindən görünən səyyarə” (planet) adlandırırdı. Azərbaycanın Xalq şairi Qabil Səməd Vurğunu Vətənin sinonimi bilirdi: ‘Xalq şairi böyük addır, bu adsız da, bu yer, bu yurd, bu torpaqdır Səməd Vurğun”.***

Vurğunhəqiqi söz dünyasının əbədiyaşarlığını yaxşı anlayırdı. Aşıq mühitində dünyaya göz açan, ruhu sazla qidalanan şair əmin idi ki, ən azı saz, söz ömrü qədər yaşayacaq:

**Demə Səməd Vurğun gəldi-gedərdi,**
**Unutmaz bu oba, bu mahal məni.**

Vurğun Sovetin başkəsən gilyotini gecə-gündüz işləyən zamanda özünə və əqidədaşlarına təhlükəni hər an hiss etsə də, əqidəsindən dönməmiş, hətta Hüseyn Cavidin, Əhməd Cavadın, Mikayıl Müşfiqin poetik düşüncələrini, həyat eşqini, azadlıq mücadiləsini alqışlamışdır. O,bilirdi ki, həqiqi sözə xidmət edənlərin sənəti də, özü də ölməzdir:

**Hansı şair, hansı qələm öz vaxtında xoşbəxt olur,**
**Vurğun öldü deməyin, bir əbədi sənəti var.**



***“Yazdıqlarının və söylədiklərinin dəyərindən əvvəl onu söyləyə bilmişolmasının, yol göstərməsinə əlavə olaraq, yola bələdçilik etməsinin və beləliklə millətin səsi, milli şair ola bilməsinin dəyəri həm bilinməli, həm bildirilməlidir. Onun yalnız sözlərinin gözəlliyi deyil, söyləyişinin gözəlliyi də olduqca mühümdür. Gözəl söz çox söylənməkdədir, lakin iltifat üçün sözlərin süsləndiyi, riyakarlıq üçün bəzədildiyi zamanlarda millətin eşitmə orqanı – qulaq sözləri zərgər kimi işləyərək söyləyə bilmənin də, sözün də, zərgərliyin də fövqündədir. Səməd Vurğunun fövqəladəliyi, sözlərin özündən əvvəl onun, nəyəsə istinad etmədən ayaqda qala bilmək üçün lazım olanın söylənməsindədir ki, onun millətə və millət üçün deyilişi, burada artıq lazım olanın söylənməsinin əmsalıdır”***

Bu gün də yüzillər əvvəl kimi, şeirə, sənətə, milli dəyərlərimiz kimi tanıdığımız şəxsiyyətlərə, müqəddəs insanlara nankorcasına şər, böhtan, çirkab atanlara, ağalarına yarınmaq üçün ağ yalanlar uyduranlara tez-tez rast gəlirik. Axı ulu yaradan insanın xislətinə humanizm, mərhəmət, uğurlara sevinmək, yaxşıya yaxşı demək kimi insani məziyyətlərlə yanaşı, nankorluq, xəbislik, paxıllıq da bəxş etmişdir ki, bir-birimizi tanıya bilək. Ancaq unutmayaq ki, çirkab təmiz yerə yapışmaz. Güzgüdə ona baxanın eybəcərliyi görünürsə, bu güzgünün günahı deyil. Ali əfəndi bu incə məqamı ürəkağrısı ilə qələmə alır:

“Sağlığında olduğu kimi vəfatından sonra da Vurğuna sataşmalar davam etməkdədir. Prinsipləri və zehniyyəti bəlli olan insanların yoluna çox daş atılır. Atalarımız deməmişdirmi ki, hündür ağacların başı çox küləkli olar. Uca dağların başına qar yağar. Əslində ağlı başında olan bir kimsə bu kimi düşüncəsizliyə getməz. Əlbəttə, şər ocaqlarının “zağarları” əskik olmaz”.

Səməd Vurğun milli dəyərlərimizi qoruyan “müsəlləh əsgər” kimi elin yaddaşında ilahi yüksəklikdədir. Tale, ruzgar milli və bəşəri şairə uzun, sağlam ömür qıymadı – cəmi 50 il bəxş elədi.Yaradıcılıq üçün isə 25-30 il. O, “ömrə son sözünü demədən” həyatı və Vurğunsevərləri tərk etdi. Tale macal versəydi, Vurğunun poetik “yadigar”ları çox olacaqdı. Axı “deyilən söz yadigardır”.

**Ölüm sevinməsin qoy! Ömrünü vermir bada**
**El qədrini canından daha aziz bilənlər...**
**Şirin bir xatirətək qalacaqdır dünyada**
**Sevərək yaşayanlar, sevilərək ölənlər...**

Ali Kafkasyalı kimdir? Böyük Türk dünyasının milli köklərini, kimliyini araşdıran türkçü. Qəlbində, ruhunda, əsərlərində türkçülük, azərbaycançılıq ideyalarının daşıyıcısı. Türkiyədə doğulan Oğuz – Türk kökənli bilim, fikir söz adamı. Ürəyində hər an Azərbaycan dünyası gəzdirən səmimi, xeyirxah, əqidəli şəxsiyyət. Qanında, canında, ruhunda mübarizə, azadlıq, Vətən eşqi dövran edən bir nəslin - Qazax rayonunun İkinci Şıxlı kəndində Kənd Mühafizə Birliyi yaradıb kəndləri bolşevik və gürcü basqınlarından qoruyarkən qaniçən Qırmızı ordunun şəhid etdiyi, Yuxarı Salahlının qarşısındakı təpədə uyuyan Məmməd Bayramoğlunun nəvəsi, Məmməd Babanın silahdaşı və oğlu, XX yüzilliyin 30-cu illərinə kimi Azərbaycanda, sonra Qarsda və Türkiyənin başqa ərazilərində haqq-ədalət, Vətənin azadlığı uğrunda mücadiləsini davam etdirən məşhur qaçaq Aloy Hacının övladı. Əlavə təqdimata ehtiyac yoxdu, məncə.

Düşüncələrimin əvvəlindəki “Atanı oğuldan, oğulu atadan yaxşı kim tanıyar, kim anlayar ki?” fikrimi təkrarlamaqda məqsədim var. Oğul Savaş bəy ata Ali bəyi necə tanıyır?

“Bir bilən anlatmış Səməd Vurğunu bu əsrdə. Bildiyini, elədiyini, qeyrətini, fəda etdiyini, fədakarlığını, qaranlığı və qara günlər yaşadığını bildiyimiz, şahidlik etdiyimiz, millətinə, millətinin dəyərlərinə, millətinin birliyinə və diriliyinə könül vermiş, elinə vurğun bir adam anlatmış Səməd Vurğunu, onun qutlu yolunu, yolçuluğunu”.

“Elinə vurğun” tanıtımındakı həqiqət Ali bəyin bütün yaradıcılığında təsdiq olunmuşdur.

Yuxarıda sadaladığım elmi kitablarında, həm də “Qartallar sınır tanımaz”, “Qafqaz qaçaqları” romanlarında, hekayələrində Böyük Türkün ruhunun salnaməsini yazan Ali bəydə kimliyimizi bizə tanıdan milli dəyərlərimizdəndir.

***Ali bəyi ‘Səməd Vurğun. Milli Şairə Dair” monoqrafiyasını yazmağa vadar edən nədir?***

***‘Səməd Vurğunun yazdıqlarının və söylədiklərinin dəyərindən əvvəl, onu söyləyə bilmiş olmasının, yol göstərməsinin, hətta bələdçilik etməsinin və bu yolla millətin səsi, milli şairi ola bilməsinin dəyəri həm bilinməli, həm bildirilməlidir.***

***Bu kitab, Səməd Vurğunun həm millətinə söyləməyi başarmaqla özünü vəzifəli bildiyini, həm də onun ən gözəl sözləri söyləməsini bildirə bilmək üçündür”.***

***El, törə, millət, Vətən, özgürlüyü yazmaq. Söz yolunda bundan müqəddəs vəzifə varmı?..***